

# Suverenliyin təminatı İlham Əliyevin Vətən qarşısında müstəsna xidmətidir



Bu gün ölkədə keçirilmiş son prezident seçkilərinin birinci ildönümüdür. Onu əvvəlkilərdən əhəmiyyətli dərəcədə fərqləndirən çox mühüm bir amil həmin seçkilərin 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyi bərpa olunandan sonra ərazi bütövlüyümüz və suverenliyimiz çərçivəsində keçirilən ilk prezident seçkiləri olmasıdır.

Təbii ki, bu tarixi hadisənin baş memarı olan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tam ədalətli olaraq həmin seçkilərin favoriti və şəksiz qalibi oldu. Hətta ən qatı əleyhdarları belə İlham Əliyevin prezident seçkilərində böyük üstünlüklə qalib gələcəyini şübhə altına almadılar. Səbəb isə o qədər tutarlıdır ki, hər hansı bir əks arqument gətirmək və ya məsələyə fərqli mövqedən yanaşmaq Azərbaycan xalqının iradəsinin əksinə getmək və ən yaxşı halda ciddi qınağa tuş gəlmək demək olardı. Hər kəs onun fərqində oldu ki, İlham Əliyevin Ali Baş Komandanlığı ilə İkinci Qarabağ savaşında əldə edilmiş möhtəşəm qələbə Azərbaycanın ən azından son 200 illik tarixində bir dönüş nöqtəsi kimi qəbul edildi. Biz xalq və dövlət olaraq bu zaman kəsiyində ilk dəfə idi ki, torpaq itkisi vermədik, əksinə, işğal altında olan ərazilərimizin əhəmiyyətli hissəsini işğaldan azad etdik.

Azərbaycan Prezidenti döyüş meydanında əldə olunan böyük Zəfərin ardınca siyasi və diplomatik müstəvidə də ard-arda hətta təsəvvür belə etmədiyimiz miqyasda böyük uğurlara imza atdı. Çox keçmədi ki, mövcud reallıqlar nəzərə alınmaqla bəzilərinin heç də birmənalı qarşılamadığı 10 noyabr Bəyanatının imzalanmasının, əslində, çox uzaqgörənliklə atılmış addım olduğu və gələcək uğurlara vəsilə olduğu təsdiqləndi. Müxalif mövqe sərgiləmək xatirinə "Rusiya hərbi kontingentinin Azərbaycan ərazisində daimi qalacağını", "Qarabağın qarşı tərəfə güzəştə gedildiyini" deyənlərin "arqument"ləri alt-üst oldu.

İkinci Qarabağ savaşından sonrakı üç il ərzində addım-addım strateji yüksəklikləri, kommunikasiya və nəqliyyat qovşaqlarını, Laçın-Xankəndi yolunu, nəhayətdə bütün suveren ərazilərimizi nəzarətə götürməklə müstəqilliyimizi bərpa edəndən sonra ilk dəfə olaraq ərazi bütövlüyümüzü və suverenliyimizi də bərpa etdik. Bütün bunları həzm etməyən separatçılar, onların ardınca isə Rusiya hərbi kontingenti ərazilərimizi tərk etdilər. 30 ildən artıq müddət ərzində xalqımıza bəlalar gətirən qondarma qurumun və terrorçuların başında dayananlar isə bu gün ədalət mühakiməsi qarşısında boyunlarını bükərək Azərbaycan qanunlarına müvafiq surətdə cəzalandırılacaqlarını gözləmək məcburiyyətindədirlər.

Yalnız Şuşada deyil, Xankəndi, Xocalı, Xovacənd, Ağdərə, Əsgəran və digər suveren ərazilərimizdə dalğalanan müqəddəs bayrağımız təkcə Azərbaycan tarixinin deyil, bütövlükdə Cənubi Qafqaz tarixinin yenidən yazılmasının sübutudur. Bütün bunları unutmaq olarmı? Əlbəttə ki, yox!

Sözsüz ki, bu dövr ərzində əldə edilmiş uğurları bir yazıda əhatə etmək mümkün deyil. Amma vacib bildiyim bir məqamı xüsusi olaraq vurğulayıram ki, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi bilavasitə Ali Baş Komandan olaraq Prezident İlham Əliyevin Vətən qarşısında müstəsna xidmətidir.

Bu gün Azərbaycan regionun əsas söz və güc sahibidir. Qardaş Türkiyə Cümhuriyyəti və bütün türk dövlətləri ilə bilikdə istər yerli, istərsə də qlobal miqyasda böyük layihələr reallaşdırılır. Sadaladığım və sadalamadığım uğurlar heç şübhəsiz ki, yürüdülən çoxvektorlu uğurlu xarici siyasət sayəsində mümkün olur. Mən əldə olunmuş bu uğurların ardınca Qərbi Azərbaycan adlandırdığımız tarixi torpaqlarımıza qayıdışın sevincini yaşayacağımıza da zərrə qədər şübhə etmirəm.

***Arzuxan ƏLİZADƏ,***
***Milli Məclisin deputatı,***
***AMİP sədri***

Azərbaycan.-2025.- 7 fevral (№ 27).- S.8.